# Bir kəndin sevinci

**Dünyada elə insanlar var ki, onlar öz elinə-obasına, kökünə urəkdən bağlanıblar. Çünki həmin insanlar o torpağın suyunu içib, çörəyini yeyib, havasını udublar. Və bu insanlar da zaman-zaman zirvəyə qalxdıqca, ucaldıqca elinin-obasının borcundan çıxmaq istəyirlər. Övlad necə valideyninə - atasına, anasına sədaqətlidirsə, eləcə də öz yurduna həmin məhəbbəti bəsləyir. Bu mənada yazıçı-publisist, pedaqoq, gözəl ziyalı Səməndər Məmmədov da elinin-obasının çəkdiyi əziyyəti ona qaytarmaq istəyib. Və uzun illər böyüyüb, boya-başa çatdığı Borçalı elinin Faxralı kəndi ilə bağlı düşüncələrini, ürəyinin döyüntülərini qələmə alıb. O,**




**bu elnən, obaynan nəfəs alıb və onlarla qürur duyub. Və təsadüfi deyil ki, Səməndər Məmmədov Faxralı ilə bağlı 3 cildlik müxtəlif adlı kitablar arayaərsəyə gətirib.**

Bu yaxınlarda isə istedadlı yazıçı-publisist Səməndər Məmmədovun "Elm və Təhsil" nəşriyyatı tərəfindən 696 səhifəlik "Faxralılar" I kitabı işıq üzü görüb. Öncədən qeyd edək ki, kitab çox yüksək poliqrafiya işi ilə diqqəti cəlb edir. Kitabı nəşrə hazırlayan və redaktor Əməkdar mədəniyyət işçisi Musa Nəbioğludur. Bir faktı da qeyd edək ki, Musa Nəbioğlu Səməndər Məmmədovun bir neçə kitabının redaktoru olub. Musa Nəbioğlu "Böyük zəhmətin bəhrəsi" məqaləsində yazır: "Səməndər müəllimi çoxdan tanıyıram. Aramızda çox səmimi dostluq münasibəti var. Hər zaman ona inanmışam, etibar etmişəm, güvənmişəm. Çünki bütöv şəxsiyyətdir, yalandan, riyadan, ikiüzlülükdən uzaqdır, verdiyi sözün qiymətini biləndir - yalandan söz verməz, söz verdisə, mütləq əməl edər. Kişiliyin, Kişi sözünün nə demək olduğunu yaxşı bilir. Onu mənə ən çox sevdirən də məhz bu keyfiyyətlərdir". "Faxralılar" kitabını vərəqlədikcə hiss edirsən ki, müəllif öz kəndinin hər çığırına, hər izinə, hər yoluna, hər ağacına yaxşı bələddir. Və Səməndər müəllim ona da yaxşı bələddir ki, bu kənddən çıxmış istedadlı ziyalıların - yazıçıların, şairlərin, alimlərin, filosofların, həkimlərin, musiqiçilərin, hüquq-mühafizə orqanlarında çalışanların hamısını arayıb-axtarıb və onlar barəsində bir-birindən gözəl və bir-birindən maraqlı portret oçerklər, zarisovkalar qələmə alıb. Bu yazılar o qədər şirin və o qədər duzludur ki, onların hamısını birnəfəsə oxumaq olar.

Bu mənada kitabda çap olunmuş "Ocaqdı Şamilim, pirdi Şamilim", "Mən Nəbiyəm, aşıqların zəriyəm", "Haqq söz inci də olsa...", "Maarif fədaisi", "İşıq saçan ziyalı", "Zülmətə nur saçan ziyalılar", "Qazanılmış sərvət", "Ölməz insan", "Sayılan və seçilən ziyalı", "El şairi, el adamı", "Çağlayan çeşmə", "Dünya durduqca", "Ot kökü üstə bitər", "Kamilliyə gedən yol", "Çöhrəsi nurlu həkim", "El səvəni aləm sevər" portret oçerkləri öz orijinallığı və oxunaqlığı ilə seçilir. Kitabı vərəqlədikcə və oxuduqca bir-birindən gözəl və rəngarəng yazılar səni özünə çəkir. Və təsvir olunan həmin qəhrəmanların nə qədər böyük istedada sahib və geniş ürəkli insan olduqlarını bir daha dərindən dərk edirsən. Dərk edirsən ki, onların hamısı öz elini, obasını sevən böyük ziyalılardır.

Kitabda ən maraqlı oçerklərdən biri də çox böyük ziyalı, ictimai-siyasi xadim, millət vəkili, professor Şamil Qurbanova həsr edilib. Həmin yazının başlığı belədir; "Ocaqdı Şamilim, pirdi Şamilim". Rəhmətlik Şamil Qurbanov universitetdə bizə də dərs deyib. O qədər gözəl mühazirə oxuyurdu ki, 90 dəqiqənin necə gəlib keçdiyini hiss etməzdik. Məqalədən bir epizodu oxucuların diqqətinə çatdırırıq: "...Allah ona hər şey vermişdi. Şux qamətinə münasib olan ağayana yerişi, nurlu çöhrəsindən heç zaman əskik olmayan təbəssümü, uca dağların zirvəsini xatırladan ağ saçları ona çox yaraşırdı. Uzaqdan gələndə elə bilirdin bir vüqarlı dağ gəlir. Zahirən sakit təbiətli bu adam təsiri bağışlasa da, daxilən təlatümlü dəniz kimi qabarıb-çəkilən, dağ çayı kimi coşqun idi və elə o coşqun ömrü də yaşadı Şamil müəllim. Səsi ən yüksək tribunalardan gəldi, millətin, dövlətin taleyüklü məsələləri həll olunanda bəziləri kimi seyirçi mövqe tutmadı, millət vəkili, ziyalı və vətəndaş kimi prinsipial mövqeydən çıxış etdi. Heç zaman əməldə bir, dildə başqa cür olmadı. Düşündüklərini cəsarətlə dilə gətirdi. Hətta dedikləri çoxunun xoşuna gəlməsə də, düz sözü söyləməkdən çəkinmədi..."

Kitabda bayaq qeyd etdiyimiz kimi gözəl yazılar çoxdur. Onlardan biri də Azərbaycan Dövlət Universitetinin (indiki BDU - F.Q.) fəlsəfə kafedrasının müəllimi, fəlfəsə elmləri namizədi Pənah Mahmudova həsr edilib. Həmin yazının başlığı belə adlanır: "Şam əgər yanmırsa, yaşamır demək". Pənah müəllim bizə "Elmi ateizm"dən dərs demişdi. Bizdən imtahan götürəndə diqqətlə cavablarımı dinlədi və sonra da dedi: "Sualların hamısına əla cavab vermisən. Ancaq bir sualım var. De görüm, Allaha inanırsanmı?" "İnanıram", - dedim. O da güldü, qiymət kitabçama "əla" yazıb mənə uzatdı. Sonra da dedi: "Elə mənim özüm də Allaha inanıram. Elmi işi müdafiə edəndə Allahı köməyimə çağırdım".

**Yazıçı-publisist Səməndər Məmmədov ondan çox kitabın müəllifidir. Və qələmə aldığı hər bir kitab öz orijinallığı, bədii dəyəri ilə bir-birindən seçilir. Bizim fikrimizcə, "Faxralılar" kitabı isə lap sanballıdı. Yəni bu kitabın həm poliqrafiya işi, həm də bədii dəyəri yüksək qiymətləndirilməlidi. İnanırıq ki, kitabı vərəqləyən hər bir oxucu Borçalı elinin Faxralı kəndinin ziyalılarını yaxından tanıyacaq, onların millətə, xalqa necə sadiq olduqlarının şahidi olacaqlar. Bu kitabı vərəqlədikcə qədim Borçalının ətri hiss olunacaq, onun dağlarının, meşələrinin sərin havası meh kimi sizin qəlbinizə bir yumşaqlıq, bir həlimlik gətirəcəkdi.**

**Faiq QİSMƏTOĞLU**

ədalət.-2017.-31 avqust.-S.3.